# (HƏDIS (35 10

<"xml encoding="UTF-8?>

HƏDIS (35) 10

Hədis 340: Həzrət Əli (ə) buyurur: “Vacib göstərişləri yerinə yetirmək kimi ibadət yoxdur.”

* * *

Hədis 341: Həzrət Əli (ə) buyurur: “Çox yeməklə sağlamlıq bir araya sığmaz.”

* * *

Hədis 342: Həzrət Əli (ə) buyurur: “Söyüş söyən adam kimi həyasız yoxdur.”

* * *

Hədis 343: Həzrət Əli (ə) buyurur: “Günahdan pak olmaq kimi mürüvvət (kişilik) yoxdur.”

* * *

Hədis 344: Həzrət Əli (ə) buyurur: “Din qardaşı ac olan halda mö`min tox olmaz.”

* * *

Hədis 345: Həzrət Əli (ə) buyurur: “Ağıllı insan məşvərət etməkdən boyun qaçırmaz.”

* * *

Hədis 346: Həzrət Əli (ə) buyurur: “Fəqirə mane olub, ona bir şey verməyən varlının günahı bütün günahlardan böyükdür.”

* * *

Hədis 347: Həzrət Əli (ə) buyurur: “O şəxsə təəccüb edirəm ki, yaxşı bir sifətə görə tə`rifləndikdə sevinir, halbuki, bu sifətə malik olmadığını bilir.”

* * *

Hədis 348: Həzrət Əli (ə) buyurur: “O şəxsə təəccüb edirəm ki, ona pis xasiyyəti haqqında deyiləndə qəzəblənir, halbuki, bu sifətə malik olduğunu bilir.”

* * *

Hədis 349: Həzrət Əli (ə) buyurur: “Qəlbin günah fikirdən uzaq qalmaq orucu, qarının aclıq ”.orucundan üstündür